İqtisadiyyat.- 2022.- 19-26 yanvar.



# Qanı yerdə qalmayanlar...




***Vətənə sevgi hissi, vətənpərvərlik duyğusu hər bir xalqın şəxsiyyətini səciyyələndirən ən yüksək əxlaqi keyfiyyətlərdən biridir. Azərbaycan xalqının həyatında, dövlətimizin qədim və zəngin tarixində isə bu cəhət həmişə başlıca meyarlardan olmuşdur. Azərbaycanın 44 günlük Vətən müharibəsindəki böyük Zəfəri, xalqımızın tarixin bu çətin sınağından alnıaçıq və üzüağ, Qələbə ilə çıxması bunu bir daha təsdiq etdi.***

Müstəqilliyimizin şərəf səhifəsinə, tariximizin qəhrəmanlıq salnaməsinə çevrilən Vətən müharibəsi isə təkcə işğal altında olan torpaqlarımızın azad edilməsi demək deyildi, bu Zəfər həm də illər əvvəl bu torpaqlar uğrunda qan tökmüş şəhidlərimizin, sinəsini sipər etmiş qəhrəmanlarımızın ruhunun dinclik tapması, qazilərimizin ürəyinə Vətən torpağının sərin suyunun səpilməsi idi. Xüsusilə 32 il əvvəl baş vermiş, qan yaddaşımızda özünə əbədiyyət qazanmış hər ilin Qanlı 20 Yanvar tarixi gəldikdə boynumuz bükük, başımız aşağı, şəhidlərin ruhu qarşısında utanaraq yollandığımız Şəhidlər Xiyabanına bu gün artıq onlar qarşısında mənəvi borcumuzu yerinə yetirmişcəsinə, qanlarını yerdə qoymamağın qüruru ilə üz tuta bilirik. Milli iradəmizin zəfər çaldığı 20 Yanvar tarixinə düz 30 il sonra Milli Ordumuzun zəfər çaldığı 9 Noyabr tarixi ilə yeni nəfəs verdik. Bəlkə də bir çoxlarına uzun görünən bu tarix əslində özündə o qanlı-qadalı hadisələri görmüş, o çətin, ağrılı günlərdə əzizlərini, yaxınlarını itirmiş, qan yaddaşı ilə qidalanmış igidlər, ərənlər böyütdü, düşmənə nifrət hissi ilə dolub-daşan "körpələrin" qisaslarını almasına bir növ özü şərait yaratdı. 30 il əvvəl əli silahsız xalqa təpədən dırnağa silahlanmış, havadarlarının yardımı ilə hücum edən düşmən o vaxt çox asan əldə etdiyi "qələbə"nin bu qədər çətin və özləri üçün çox qorxunc olacağını ağlına da gətirməzdi. Bacarmadı… Bu dəfə mənfur düşmənə nə havadarları, nə ondan-bundan diləndiyi silah-sursat, nə də "ordu"su kömək ola bilmədi. Çünki qarşısında özündən qat-qat güclü Ordu, öz torpağını düşməndə qoymayacağına and içmiş bir dövlətin qisas eşqi ilə yanan qəlbi, 30 illik ciddi hazırlığı, arxa-dayaq olacaq sadiq dostları və bir də güclü lideri vardı. Bəli, 30 il öncə Azərbaycan xalqının başına gətirilən qanlı faciənin qisası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına alındı, Azərbaycanın çoxəsrlik tarixinə bu Qələbə qızıl hərflərlə yazıldı.

Xalqımız və rəşadətli Ordumuz 44 gündə şanlı tarix yazaraq, 30 illik işğala son qoydu, ərazi bütövlüyümüz bərpa olundu. Bu qələbə ilə Prezident İlham Əliyev Azərbaycanı qalib ölkəyə, Azərbaycan xalqını isə qalib xalqa çevirdi. "Qarabağ Azərbaycandır!" sözünün nidasını bu dəfə sözü ilə yox, əməli ilə əbədi şəkildə qoydu, tarixə qazıdı.

**Mətanət HÜSEYNOVA**